**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

**ATİB sədri "Voice of America"ya müsahibə vermişdir**

*Ahmet Erentok: **"**Türkiyənin güya normallaşdırma prosesi adı altında başladılan bu münasibətdə hər hansı bir mənfəət əldə edəcəyinə qətiyyən inanmıram."*

**No: 09/23/102**
**15.04.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri və Azərbaycan Türkiyə Amerika Fondunun (ATAF US) sədri Ahmet Erentok Vaşinqtonda "Voice of America" nümayəndəsinə müsahibə vermişdir.

Ahmet Erentok ABŞ Prezidenti Barak Hüseyn Obamanın Türkiyə səfərinin Azərbaycanda necə qarşılanması məsələsinə münasibətini bildirmişdir. "Bu səfər Azərbaycanda yaxından izləndi. Son bir həftədir ki, Türkiyə Ermənistan sərhədlərinin açılması ilə bağlı ciddi narahatlıq yaşanır."

Daha sonra ATİB sədri Azərbaycan dövlətinin Türkiyənin Ermənistanla olan münasibətlərində irəliləyiş olarsa, Türkiyə ilə əlaqələrini yenidən gözdən keçirəcəkmi sualını cavablandırmışdır: "Bu məsələ, həm AR Xarici İşlər Naziri, həm də Dövlət Başçısı tərəfindən verilmiş mesajlarda öz əksini tapmışdır. 1993-cü ildə Türkiyə bu ölkənin sərhədlərini tanımamış olması, soyqırım məsələsi və Azərbaycanın torpaqlarının işğalı faktını önə çəkərək Ermənistanla sərhədləri bağladı. Indi 2009-cu ildə nə dəyişmişdir? Heç nə. Əksinə təzyiq artmışdır. Bu məsələni diqqətlə qiymətləndirmək lazımdır. Dağlıq Qarabağ məsələsi həll olmadan əvvəl Türkiyənin Ermənistanla sərhədləri açmasının Azərbaycanın mövqeyini zəiflədəcəyi gözlənilir. Bu da, başda siyasi və iqtisadi əlaqələr olmaqla Türkiyə ilə Azərbaycan xalqları arasında asanlıqla aradan qaldırılmayacaq problemlər əmələ gətirəcək."

A.Erentok Obamanın Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin yavaş-yavaş düzəlməsindən məmnunluq duyduğunu söyləməsi ilə bağlı da fikrini bildirmişdir: "Bu məsələyə iki cür yanaşma var. Prezident Abdullah Gülün Ermənistan səfərinə də təmkinli və neqativ yanaşanlar oldu. Mən, bu məsələyə dialoq prosesi olaraq baxdım. Istər düşmənlə, istərsə də yaxın adamla hər zaman dialoqda olmağı doğru hesab edirəm. Ancaq bu səfərdən dərhal sonra Sarkisyanın və Ermənistan Xarici İşlər Nazirinin açıqlamaları, bu açıqlamalar içərisində Ermənistanın prinsipləri və siyasətini dəyişdirməyəcəyi, Türkiyə ilə olan dialoqda Dağlıq Qarabağ məsələsinin heç bir şəkildə gündəmdə olmayacağı kimi məsələlərə baxdıqda Ermənistanla olan dialoqun çox səmimi olmadığı görünür. Ermənistan tərəfindən hər hansı bir addım atılmadan Türkiyənin güya normallaşdırma prosesi adı altında başladılan bu münasibətdə hər hansı bir mənfəət əldə edəcəyinə qətiyyən inanmıram."

Müsahibəni izləmək istəyənlər aşağıdakı linkdən müsahibənin video görüntüsünü yükləyə bilərlər. http://www.voanews.com/turkish/2009-04-10-voa28.cfm

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**